## Azərbaycan dili

1. Hansı sözün tələffüzü ***yanlış*** verilmişdir?
A) bağışlanmaq – [bağışdammax]
B) saxtakarlıq – [saxdakarrıx]
C) pürrəng – [pürrənk]
D) təkidlə - [tə:kitnən]
E) stasionar – [sdasianar]

2. Cədvələ əsasən sözlərlə bağlı ***yanlış*** fikirləri müəyyən edin.

| Testləşdirmə | Realizm |
|---|---|
| 1. 3 kar samit var. | 4. Yazılışı və tələffüzündə fərq yoxdur. |
| 2. Hərf və səslərin sayı eynidir. | 5. Səs artımı hadisəsi baş verir. |
| 3. İkinci t hərfi [d] kimi tələffüz edilir. | 6. İki açıq, bir qapalı sait var. |

A) 1, 2, 3 B) 4, 5, 6 C) 2, 3, 4
D) 2, 3, 5 E) 1, 5, 6

3. *“Rast[1] gəldiyi insanlar[2] həmişə[3] ona[4] diqqətlə[5] qulaq[6] asırdılar.”* cümləsindəki sözlərin fonetik xüsusiyyəti ilə bağlı düzgün fikirlərdir.
1. Üzərində 1 rəqəmi yazılmış ifadədə “t” səs ifadə etmir.
2. Üzərində 2 rəqəmi yazılmış sözdə kar qarşılığı olmayan bütün samitlər işlənmişdir.
3. Üzərində 3 və 4 rəqəmi yazılmış sözləri sətirdən sətrə keçirmək olar.
4. Üzərində 5 rəqəmi yazılmış sözdə iki kar samit var.
5. Üzərində 6 rəqəmi yazılmış sözdə kar samit yoxdur.
A) 1, 2, 3 B) 2, 3, 4 C) 1, 4, 5
D) 3, 4, 5 E) 1, 2, 4

4. Hansı birləşmənin birinci və ikinci tərəfinin son samiti kar tələffüz olunur?
A) Soyuq limonad
B) Cilalanmış almaz
C) Totuq uşaq
D) Mis qab
E) Tütək almaq

5. Hecalara düzgün bölünmüş və sətirdən sətrə keçirilə bilən sözlərin sırasını müəyyən edin.
A) ü-nsür, u-zaq, ül-vi
B) trans-krip-si-ya, tə-əs-sü-rat, seys-mo-lo-gi-ya
C) tür-bə, tu-nel, ü-füq
D) pey-zaj, mən-bə, ə-mir
E) ek-stra-sens, ek-spert, dubl-yaj

6. “Kino” sözünə hansı söz bitişdirilsə, yazılışı ***yanlış*** olar?
A) jurnal B) aparat C) xronika
D) lent E) matoqraf

7. Sözlərin birində “o” [a] kimi tələffüz ***edilmir***.
A) dotasiya B) dosent C) dominant
D) botanika E) donanma

8. Çoxmənalı söz və omonim sıralanmasını nəzərə alaraq nöqtələrin yerinə hansı sözlər yazılmalıdır?
1. soyumaq 2. dam
3. ağır 4. qurd
5. ......... 6. ........
A) durna, təpə
B) su, dərs
C) qarış, salam
D) yüngül, zərf
E) ayrı, saralmaq

9. Hansı sıradakı sözlər antonim ***deyil***?
A) bükmək – açmaq
B) oturmaq – durmaq
C) bozarmaq – göyərmək
D) əyilmək – düzəlmək
E) arxayın – nigaran

10. Verilmiş cümləyə əsasən düzgün bəndi seçin.
*“Əmək adamlarının qapısını xoşbəxtlik döyər.”*
A) Publisistik üslubdadır – şifahi və yazılı forması var.
B) Məişət üslubundadır – normaya tabedir.
C) Elmi üslubdadır – terminlilik əsasdır.
D) Bədii üslubdadır – təşbeh işlənmişdir.
E) Bədii üslubdadır – metafor işlənmişdir.

11. Klasteri tamamlayın.




1. sazaq 2. şəbnəm 3. zərrə
4. jalə 5. yağış
A) 1, 2 B) 2, 4 C) 3, 4
D) 2, 5 E) 1, 5

12. *“O, hər səhər kabinetə daxil olanda stolun üstündə tər çiçəklər görürdü.”* cümləsində hansı sözün sinonimlik, omonimlik və antonimlik xüsusiyyəti var?
A) səhər B) kabinet C) stol
D) tər E) çiçək

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

13. Cümlələrin birində frazeoloji birləşmə yoxdur.
A) Göylər kişnədi, buludlar ağladı, sən isə yumşalmadın.
B) Köhnə tanışını görəndə bir anlıq özünü itirdi.
C) Dostunun davranışındakı bir cəhət gözündən qaçmışdı.
D) Kobud danışığınla kefimə soğan doğradın.
E) Yastı Salman Rüstəm kişinin qılığına girməyi bacarmışdı.

14. “Relyef, etimologiya, qoşma” sözləri hansı söz qruplarına aiddir?
A) ümumişlək sözlərə
B) alınma sözlərə
C) terminlərə
D) omonimlərə
E) sinonimlərə

15. Sözün leksik təhlili ilə bağlı hansı fikir klasteri tamamlaya bilər?




A) Mücərrəd isimdir.
B) Quruluşuna görə sadədir.
C) Omonimlik xüsusiyyətinə malik deyil.
D) Omonim tayı ilə cinas qafiyə yaratmaq olar.
E) Birinci səs uzun tələffüz olunur.

16. Hansı sözü iki cür tələffüz etmək olar?
A) bağışla B) qürurlu C) bulaqdan
D) otaqlar E) gözlə

17. Fonetik norma ***pozulmayan*** cümləni müəyyən edin.
A) Alimin yuxusu cahilin ibadətinnən xeyirlidi.
B) Elim qəlbə güc verər, mal isə qəlbi daşlaşdırar.
C) Beşikdən məzara qədər elm öyrənin.
D) Böyüyə hörmətsizdik üz qaraldır.
E) Gözəllik insanın geyimində deyil, elm və mərfətindədir.

18. *“Bayram axşamı qonşu uşaqlarının hamısı bizim qapıya da papaq qoyardılar”* cümləsində hansı norma ***pozulub***?
A) yalnız fonetik
B) fonetik, leksik
C) yalnız qrammatik
D) leksik və qrammatik
E) yalnız leksik

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

19. Ədəbi dilə aid ***yanlış*** fikirdir.
A) Ədəbi dilin normaları dilin daxili quruluşuna əsasən formalaşır.
B) Ədəbi dilin normaları dilin tarixi təkamülünün nəticəsində dəyişə bilir.
C) Ədəbi dilin yazılı və şifahi formaları olur.
D) Ədəbi dil ciddi normalar əsasında fəaliyyət göstərdiyi üçün dialektə qarşı durur.
E) Ədəbi dildə alınma sözlərin işlənməsi leksik normanı pozur.

20. Bədii üsluba aid xüsusiyyətlərdir.
1. Yazılı və şifahi şəkildə olur.
2. Söz sırasına ciddi əməl olunur.
3. Məcazlardan geniş istifadə olunur.
4. Ədəbi dilin sərbəst formasıdır.
5. Obrazlı ifadələr ekspressivlik yaradır.
A) 1, 3, 5 B) 1, 2, 3 C) 2, 4, 5
D) 1, 2, 4 E) 3, 4, 5

21. Verilən nümunədə fikrin qüvvətləndirilməsi üçün hansı üslubi vasitədən istifadə edilib?
*Bağa girdim bağbansız,*
*Dəvə gördüm sarvansız,*
*Aləmə dərman verdim,*
*Özüm öldüm dərmansız.*
A) epitetdən
B) bənzətmədən
C) ellipsisdən
D) metafordan
E) bədii təzaddan

22. Bədii üslubda istifadə ***olunmur***.
A) Məcazi mənalı sözlərdən
B) Həqiqi mənalı sözlərdən
C) Frazeoloji birləşmələrdən
D) Qrafik işarə və düsturların izahından
E) İnformativ funksiya daşıyan sözlərdən

**Açıq tipli test tapşırıqları:**

23. Hansı sözlərdə hərf və səs tərkibi fərqlidir?
1. təqsir 2. ellipsis 3. təbii
4. hospital 5. köməkçi 6. kəmhövsələ

24. Hansı cümlələrdə omonimlik, sinonimlik və antonimlik xüsusiyyətinə malik olan sözlər işlənmişdir?
1. Dağ çayının səsi bir az da vahimə yaradırdı.
2. Şagirdlər futbol yarışına həvəslə hazırlaşırdılar.
3. Yolun sol tərəfində yeni məktəb binasının təməlini qoydular.
4. Hamı bu gözəlliyi heyran-heyran seyr edirdi.
5. Qalanın üstündə yanan tonqal səhərə qədər sönmədi.

25. Düzgün fikirləri seçin.
1. Terminlərin sinonimliyi olmur.
2. Sinonimlər yersiz təkrarların qarşısını alır.
3. Bütün sözləri çoxmənalı kimi işlətmək mümkündür.
4. Omonimlərdən bədii ədəbiyyatda cinas qafiyə yaratmaq üçün istifadə olunur.
5. Antonimlərdən bədii üslubda bədii təzad yaratmaq üçün istifadə olunur.

26. Cədvələ əsasən düzgün fikirləri müəyyən edin.

| | | |
|---|---|---|
| 1 | "Gözünün acısını almaq" frazeoloji birləşməsini "mürgüləmək" sözü ilə ifadə etmək olar. | doğru |
| 2 | "Onun dediklərinin heç birinə *inanmadım*." cümləsində fərqləndirilmiş sözü frazeoloji birləşmə ilə əvəz etmək olar. | yanlış |
| 3 | "Əmir babanın üzündən nur yağırdı" cümləsində işlənmiş frazeoloji birləşmənin antonimi var. | doğru |
| 4 | "Bu təzə adamdan heç gözüm su içmirdi." cümləsindəki frazeoloji birləşmənin sinonimi "şübhələnmək"dir. | yanlış |
| 5 | "Boynuna götürmək" ifadəsini həm həqiqi, həm də məcazi mənada işlətmək olar. | yanlış |

27. Uyğunluğu müəyyən edin.
1. Yazılışı səhv, izahı düzgün verilib.
2. Yazılışı və izahı düzgün verilib.
3. Yazılışı və izahı yanlış verilib.

a. Qövsiquzeh – şimal qütbü
b. Şovinizm – başqa millətlərə qarşı ədavət və nifrət təbliğ edən mürtəce millətçilik
c. Zədəgan – Hakim sinfin yüksək kübarlar təbəqəsi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

***Mətn sualları***

Erkən yaşlardan bədən tərbiyəsi və idmanla məşğul olmaq, bədəni möhkəmləndirmək olduqca vacibdir. İdman orqanizmi xəstəliklərdən qoruyur, sağlam saxlayır və bədən daha ...... olur. Ona görə də bacardığın qədər daha çox hərəkət et, asudə[1] vaxtlarını isə hərəkətli oyunlar oynayaraq təmiz havada keçir. Lakin idman edərkən müəyyən qaydaları da unutma! Əks halda orqanizmin sağlamlıq əvəzinə xəstəlik tapar. Mütəxəssislərin məsləhətlərinə görə, idmana başlamazdan ən azı yarım saat əvvəl yemək-içməyi dayandırmalı, başlayarkən isə əvvəlcə kiçik hərəkətlərdən başlanmalıdır. Əgər bunu etməsəniz, xəstəliklər meydana çıxa bilər.

Fiziki tərbiyə sağlam inkişafa təkan verir, dözümlülüyü tənzimləyir[2], insanda müsbət emosiyalar yaradır.

28. Üzərində rəqəm yazılmış sözlərin uyğun qarşılığını müəyyən edin.

29. Nöqtələrin yerinə hansı uyğun sözü artırmaq olar?

30. İdmana başlamazdan əvvəl mütəxəssislərin hansı məsləhətlərinə əməl etmək lazımdır? Əməl edilməsə nə baş verə bilər?

1ED_Bilik_Team1

## Tarix

31. Qədim Daş dövrünün sonları üçün xarakterikdir:
1. Qəbilə icması yarandı
2. İstehsal təsərrüfatı yarandı
3. Kamilləşmiş müasir insan tipi yarandı
4. İbtidai əkinçilik və maldarlıq yarandı
5. Toxuculuq inkişaf etdi

A) 1, 3 B) 2, 4 C) 3, 4
D) 3, 5 E) 1, 5

32. *Onlar e.ə III minilliyin ikinci yarısında Urmiya gölünün cənub-qərbində dövlət qurumu yaratdılar. İkiçayarası sakinləri tərəfindən "dağ əjdahaları" adlandırılırdı.*
Mətndə bəhs olunan dövlət qurumu Lullubi dövlət qurumundan fərqli olaraq:
1. E.ə III minilliyin sonunda süquta uğradı
2. Assuriya dövlətinin yürüşünə məruz qaldı
3. Akkad dövlətini süquta uğratdılar
4. Mesopotamiyada şəhərlərarası toqquşmalara son qoyuldu
5. Nuzi şəhəri ilə mal mübadiləsi aparırdı

A) 1,2 B) 3,4 C) 2,5
D) 1,5 E) 2,4

33. Mannanın İranzudan Ahşerinin hakimiyyətinin sonunaqədərki dövrü üçün xarakterik ***deyil:***
A) İskit hökmdarı İşpakay ilə müttəfiqlik münasibətlərinin yaranması
B) Aşşurbanipalın Manna üzərinə yürüşə başlaması
C) Sirdakka şəhərində müqavilə imzalanması
D) Midiya və Babilə qarşı mübarizədə Mannanın Assuriyaya kömək göstərməsi
E) Hökmdarın Uauş dağında canişinlərlə döyüşdə öldürülməsi

34. Səbəb - Nəticə əlaqələrində uyğunluğu müəyyən edin:

| № | Səbəb | Nəticə |
|---|---|---|
| 1 | Albaniyada 457-463-cü il azadlıq hərəkatı | Albaniya dövlətinin süquta uğraması |
| 2 | II Vaçenin sərbəst siyasəti | Sasani dövləti ilə münasibətlərin kəskinləşməsi |
| 3 | I Qubadın məzdəkilərə arxalanması | İri feodallar tərəfindən taxtdan salınması |
| 4 | Urnayrın hakimiyyətə gəlməsi | Albaniyanın Dzirav döyüşündə itirdiyi torpaqlara yenidən sahib olması |

A) 1, 2 B) 3, 4 C) 2, 4
D) 1, 3 E) 2, 3

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

35. Uyğunluğu müəyyən edin:
1. Mete xaqan
2. Teoman tanhu
3. Sin Şi Xuandi
a. Ölkə ərazisini 36 vilayətə böldü
b. Pinçen şəhəri yaxınlığında qələbə qazandı
c. Ötükən şəhərini paytaxt seçdi
d. Hun imperiyasını iki yerə parçaladı

A) 1-b; 2-c; 3-a
B) 1-a; 2-c; 3-d
C) 1-d; 2-b; 3-c
D) 1-b; 2-a; 3-c
E) 1-b; 2-d; 3-a

36. Paytaxtları ulduz ilə işarələnmiş qədim dövlətlər üçün oxşar cəhətdir:




A) III əsrin oratalarına qədər Roma ilə siyasi-iqtisadi əlaqələri mövcud olmuşdur
B) Selevki dövlətindən asılı hala düşdü
C) Yunan-Makedoniya əsilli sərkərdələr tərəfindən idarə olunurdu
D) Tikinti materialı – kirəmitdən istifadə edilirdi
E) Əhəməni dövləti tərəfindən süquta uğradılmışdır

37. Şumerdə hərbi başçıların hökmdara çevrilməsinə səbəb oldu:
A) Şəhərlər arasında müharibələrin artması
B) Yazılı qanunların meydana gəlməsi
C) Vahid dövlətin yaranması
D) Kutilərin hakimiyyətinə son qoyulması
E) Türkdilli əhalinin məskunlaşması

38. ***Düzgün olmayan*** bəndi müəyyən edin:
A) Dastakert irsi torpaq sahibliyi idi
B) I Xosrovun islahatları ilə sahibsiz torpaqlar hərbçilərə paylandı
C) Azərbaycanda kəndlilər feodaldan şəxsən asılı deyildilər
D) Hərbi xidmət əvəzində verilən şərti torpaqlar xostak adlanırdı
E) Qərbi Avropada feodalizm III əsrdən başlamış, XVII əsrə qədər davam etmişdir

39. Cavanşirin fəaliyyəti ilə bağlı uyğunluğu müəyyən edin:
1. VII əsrin I yarısı
2. VII əsrin II yarısı
a. III Yəzdigərd tərəfindən mükafatlandırılması
b. Bizans imperatoru ilə ittifaq yaratması
c. Savalan dağı yaxınlığında məğlubiyyət
d. Kür çayı sahilində xəzərlərin məğlub edilməsi
A) 1-a; 2-b,d
B) 1-a,b; 2-c,d
C) 1-c; 2-a
D) 1-b; 2-d
E) 1-d; 2-c

40. Eyler - Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin:




a. Təsərrüfatda xışdan istifadə edilirdi
b. Böyük tayfa ittifaqları yarandı
c. İlkin şəhər mərkəzləri yarandı
d. Kollektiv dəfn adətləri yarandı
e. Tacirlər qrupu sənətkarlardan ayrıldı
A) 1-a; 2-c; 3-d
B) 1-d; 2-b,c; 3-a
C) 1-d; 2-c; 3-a
D) 1-e; 2-b,c; 3-a
E) 1-c; 2-b; 3-e

41. Son feodalizm dövründə:
A) Məhsuldar qüvvələr inkişaf etdi, satış üçün istehsal edilən məhsul artdı
B) Ərəblər, türklər, monqollar feodalizmə keçdi
C) "Xalqların böyük köçü" başa çatdı
D) Hunlar indiki Macarıstan ərazisində məskunlaşdı
E) German tayfaları Roma imperiyası ərazilərinə daxil oldu

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

42. Ərəblər ilə Muğan əhalisi arasında bağlanmış müqavilə üçün xarakterikdir:
1. Muğan əhalisi ərəblərin hakimiyyətini qəbul etməli idi
2. Dərbənd əhalisi vergidən azad edildi
3. 644-cü ildə imzalanmışdır
4. Həddi-büluğa çatan bir dinar və ya onun dəyərində cizyə ödəməli idi
5. Cavanşir Xəzərlərin vassallığından azad oldu
A) 2, 4, 5 B) 1, 2, 3 C) 1, 3, 4
D) 1, 3, 5 E) 1, 2, 4

43. Qədim Misir və Şumerlər üçün oxşar cəhətdir:
A) İlk yazının əşyanın şəklinin çəkilməsi ilə yaranması
B) Hökmdar məzarına ehram inşa edilməsi
C) Suriya uğrunda müharibələr
D) Mixi yazı sistemindən istifadə
E) e.ə IV minillikdə vahid dövlətin yaranması

44. Avropada qədim dövr başa çatdı:
A) İmperator Konstantinin vəfat etməsi ilə
B) Roma imperiyasının Qərb və Şərq hissələrə bölünməsi ilə
C) Qərbi Romanın süqutu nəticəsində
D) Xristianlığın meydana gəlməsi ilə
E) Makedoniyalı İskəndərin vəfatı nəticəsində

45. Hökmdar Aşokanın fəaliyyətinə ***aid deyil***:
A) Hindistan vahid dövlətdə birləşdirildi
B) Yunan - Makedoniya işğalına qarşı mübarizəyə başladı
C) Buddizmin əsas himayədarı və təbliğçisi idi
D) Ölkənin müxtəlif səmtlərində 33 kitabə qoydurdu
E) Bir sıra sahələrdə islahatlar apardı

46. Uyğunluğu müəyyən edin:




A) 2, 3 B) 1, 5 C) 2, 4
D) 3, 5 E) 1, 4

47. Uyğunluğu müəyyən edin:

Qədim Çin

| 1. Sin sülaləsi | 2. Xan sülaləsi |
|---|---|
| **a.** Konfutsi təlimi tərəfdarlarına divan tutuldu<br>**b.** «Qırmızıqaşlılar» üsyanı yatırıldı<br>**c.** Vyetnamın bəzi vilayətləri və Koreya işğal edildi | **a.** III əsrin əvvəllərində süqut etdi<br>**b.** Çin dünya ticarət yollarına çıxış əldə etdi<br>**c.** Fəaliyyət dövrü «Vuruşan padşahlıqlar» dövrü adlanır |

A) 1-a,c; 2-b
B) 1-c; 2-c
C) 1-b; 2-a
D) 1-c; 2-a
E) 1-a; 2-a,b

48. Azərbaycanın şimal torpaqlarında Arşaki sülaləsinin hakimiyyətə gəldiyi əsrə uyğun gəlir:
A) Feodal iqtisadi münasibətlərinin yaranması
B) Atropatena dövlətinin yaranması
C) Zərdüştiliyin meydana gəlməsi
D) Qobustanda tapılan Roma – Albaniya münasibətlərinə aid yazılı mənbə
E) Antoninin başçılığı ilə Romalıların şərq yürüşü

49. E.ə V əsrin ikinci yarısı Yunan tarixinə aid xüsusiyyətləri müəyyən edin:
1. Olimpiya oyunları adlanan ilk yarışların keçirilməsi
2. Makedoniya ordusuna məğlub olmaları
3. Afina demokratiyası ilə Sparta oliqarxiyası arasında ziddiyyətlər
4. I Daranın Yunanıstana hücumunun başlanması
A) Yalnız 3 B) 1, 4 C) 2, 3
D) Yalnız 4 E) 1, 2

50. Hadisə və Nəticə əlaqələrində uyğunluğu müəyyən edin:

| № | Hadisə | Nəticə |
|---|---|---|
| A) | Solon islahatlarının keçirilməsi | Xalq yığıncağının ali hakimiyyət orqanına çevrilməsi |
| B) | Periklin hakimiyyətə gəlməsi | Makedoniya dövlətinin güclənməsi |
| C) | Fermopil döyüşünün baş verməsi | Afina dəniz ittifaqının dağılması |
| D) | Demos və əyanlar arasında mübarizə | Yunan koloniyalarının meydana gəlməsi |
| E) | Dorilərin şimaldan Yunanıstana yürüşü | Mikena sivilizasiyasının dağılması |

51. Xüsusiyyətləri xəritədə rəqəmlər ilə verilmiş qədim dövlətlərə uyğunlaşdırın:




a. Vəzifələrə yalnız patrisilər seçilə bilərdi
b. 12 lövhə qanunları qəbul edilmişdi
c. E.ə II əsrdə ərazisi işğal edildi
d. Yoxsullara dövlət vəzifələrində çalışa bilmələri üçün əmək haqqı verilirdi
A) 1-a; 2-c
B) 1-a,b; 2-c,d
C) 1-b; 2-c,d
D) 1-d; 2-a,b
E) 1-b; 2-d

52. Ağ Hun hökmdarı Ağsuvar xan və Qərbi Hun hökmdarı Attilanın fəaliyyətlərinə aid ümumi cəhət:
A) Sasanilərin məğlub edilməsi
B) Qərbi Roma ilə müharibələr
C) V əsrin I yarısında hakimiyyətə gəlmələri
D) Ötükən şəhərinin paytaxt seçilməsi
E) Şimal-qərbi Hindistanın işğal edilməsi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

**Açıq tipli test tapşırıqları:**

53. Göytürk xaqanlarını müəyyən edin:
    1. Qutluq xan
    2. Ağsuvar xan
    3. Bumin xaqan
    4. Qapağan xaqan
    5. Balamir xan

54. *Onun hakimiyyəti dövrü Albaniyanın siyasi və mədəni – dini dirçəliş kimi səciyyələndirilir. O, əvvəlcə ölkədə dini birliyə nail omağa çalışdı. Kilsə məclisi çağıraraq mühüm qərarlar qəbul edildi.*
    Mətndə bəhs edilən hökmdardan fərqli olaraq Alban hökmdarı Urnayr:
    1. Xristianlığı dövlət dini elan etdi.
    2. Sasani şahı II Şapurun müttəfiqi idi
    3. Albaniya dövlətinin müstəqilliyini möhkəmləndirməyə çalışırdı
    4. Albaniyanın son Arşaki hökmdarı idi

55. Xronoloji ardıcılılğı müəyyən edin:
    1. Parfiya Arşakilər sülaləsinin süqutu
    2. III Antioxun Atropatenaya hücumu
    3. Karra döyüşü
    4. Sərkərdə Kanidinin Cənubi Qafqaza yürüşü

56. Misirin e.ə III minillik tarixinə aiddir:
    1. Heroqlif yazının yaranması
    2. İlk piramidanın inşası
    3. Ayrı-ayrı hissələrə parçalanması
    4. II Ramzesin hetlərlə mübarizəsi
    5. Memarlıqda böyük inkişafın baş verməsi

57. Uyğunluğu müəyyən edin:
    1. Cərmidan döyüşü
    2. Kadisiyə döyüşü
    3. Bələncər döyüşü
    a. Azərbaycan mərzbanı İsfəndiyar məğlub oldu
    b. Döyüşdə Cavanşir Ərəblərə qarşı vuruşurdu
    c. Ərəblərin Azərbaycan ərazisinə yürüşlərinə son qoyuldu
    d. Xəzərlər qalib gəldi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

**Sizə təqdim olunmuş mənbə əsasında tapşırıqları tarixi biliklərinizə əsasən *Cavab vərəqində* cavablandırın.**

İran-Yunan müharibələrində qələbədən sonra Yunan dövlətlərinin gələcək inkişafı ya Sparta, ya da Afina yolu ilə gedə bilərdi. Peloponnes ittifaqının qurultayında müttəfiqlər Afina ilə müharibəyə başlamaq qərarına gəlirlər. Başlanmış olan diplomatik danışıqlarda spartalılar Afina dövləti qarşısında ultimatum xarakteri daşıyan bir sıra tələblər qoydular. (məsələn, Periklin Afinadan qovulması, Afina dəniz ittifaqı üzvlərinə muxtariyyət verilməsi və s.). Bu tələblər, əlbəttə, qəbul edilə bilməzdi. Peloponnes ittifaqının tələblərinə rədd cavabı veriləndən sonra hər iki tərəf üçün müharibədən başqa çıxış yolu qalmırdı.

58. Mənbədə bəhs edilən müharibənin başlanmasının səbəblərini tarixi biliklərinizə əsasən müəyyən edin: (Azı 1 səbəb)

59. Mənbədə bəhs edilən müharibənin nəticələrini müəyyən edin: (Azı 2 nəticə)

60. Mənbədə bəhs edilən müharibənin başlanma və bitmə tarixlərini qeyd edin:

TimeBilikTeam1

## Ədəbiyyat

61. Şeir parçası haqqında verilənlərdən biri ***yanlışdır***.
*Bir yanda tərlanlar, dumanlı dağlar,*
*Bir yanda kəkliklər, ayna bulaqlar,*
*Bir yanda bülbüllər, çiçəkli bağlar,*
*Mən bu tamaşadan necə əl çəkim?*
A) Bütün misralarda daxili bölgü 6+5 şəklindədir.
B) Təkrirdən istifadə edilmişdir.
C) Zəngin qafiyədən istifadə edilmişdir.
D) İlk üç misrada təşbehdən istifadə edilmişdir.
E) Sonuncu misrada bədii sualdan istifadə edilib.

62. *Zərif mülayim mənalarını bildirir. Bu bəhrdə yazılan şeirlər öz oynaqlığı ilə seçilir.* Bu xüsusiyyətlər aşağıdaklardan hansına aiddir?
A) xəfif B) həzəc C) rəməl
D) münsərih E) müctəs

63. *Mənim öz ulduzumu bağrına basmış hilalım,*
*Dedi öndər: "Yönü bayraqdakı üç rəngdən alım"*
*Sən bu gül bayrağın altında məramınca yaşa,*
*Qoyma düşmən nəfəsindən ona çirkab bulaşa.*
Nümunəyə əsasən cədvəldəki uyğunluğu müəyyən edin.

| | | |
|---|---|---|
| A) | Bütün misralarda zəngin qafiyədən istifadə edilib. | yanlış |
| B) | Bir əşyaya məxsus əlamət başqa bir əşyanın üzərinə köçürülmüşdür. | doğru |
| C) | Bir əşya və ya hadisə özündən daha qüvvətli bir əşyaya, hadisəyə oxşadılıb. | doğru |
| D) | Epitetə aid nümunə yoxdur. | doğru |
| E) | Bütün misralarda inversiyaya rast gəlinir. | doğru |

64. Hansı fikir verilən janrlardan yalnız birinə aiddir.




A) Sonunda müəllifin adı və ya təxəllüsü verilir.
B) Əruz vəznində yazılır.
C) Bədii təsvir vasitələrindən istifadə edilə bilər.
D) Hadisələr şaxələndirilir və geniş təsvirinə yer verilir.
E) Beytlər şəklində olur.

65. Biri şifahi xalq ədəbiyyatına aid edilə ***bilməz***.
A) Müəllifsiz ədəbiyyatdır.
B) Nümunələrin yaranma tarixi qədim olduğu üçün yalnız tərənnümdən istifadə edilib.
C) Xalqın tarixi ilə sıx bağlı olur və onun öyrənilməsi üçün etibarlı mənbə hesab edilir.
D) Folklor nümunələri janr əlvanlığı, dil-üslub aydınlığı və xəlqiliyi ilə seçilir.
E) Yazılı ədəbiyyatın yaranması və inkişafına təsir göstərib.

66. Hansıların yerini dəyişsək, süjetin mərhələlərinin ardıcıllığı bərpa olar?




A) 1, 5 B) 1, 3 C) 2, 4
D) 3, 5 E) 1, 4

67. Verilən janrlardan biri şeir vahidinə görə digərlərindən fərqlənir.
A) Müxəmməs B) Məsnəvi C) Tuyuq
D) Rübai E) Qoşma

68. Cədvələ əsasən ***uyğunsuzluğu*** müəyyən edin.

| *Qəzəl* | *Qitə* |
|---|---|
| 1. Misralarda uzun və qısa hecaların sayı bərabər olmalıdır.<br>2. *aa, ba, ca* – şəklində qafiyələnir. | 3. Qafiyə quruluşu qəsidədən fərqlənir.<br>4. Daha çox məhəbbət mövzusunda yazılır. |
| 5. Məqtə beytindəki misralar bir-biri ilə qafiyələnmir.<br>6. Şeir vahidi qoşma ilə eynidir. | |

A) 1, 4, 6 B) 2, 3, 5 C) 1, 4, 5
D) 1, 3, 6 E) 3, 4, 5

69. Cədvəldə rəqəmlərin yerinə uyğun olaraq yazıla bilər.

| *Janr* | *Şeir vahidi* | *Ölçü* |
|---|---|---|
| 1 | bənd | heca |
| Qəsidə | 2 | əruz |
| Gəraylı | bənd | 3 |

A) 1. Tuyuq, 2. bənd, 3. əruz
B) 1. Qoşma, 2. beyt, 3. sərbəst şeir
C) 1. Təcnis, 2. beyt, 3. heca
D) 1. Rübai, 2. beyt, 3. heca
E) 1. Müxəmməs, 2. bənd, 3. əruz

70. Biri kompozisiyanın ünsürləri sırasında verilə ***bilməz***?
A) Epiqraf B) Proloq C) Epiloq
D) Lirik ricət E) Kinayə

71. Nəzm haqqında verilənlərdən doğru olanlarını müəyyən edin.
1. Daha çox lirik əsərlər nəzmlə yazılır.
2. Həyatı əksetdirmə üsullarından biridir.
3. Nəzmlə yazılan əsərlərdə həmişə lirik qəhrəman ön planda olur.
4. Təsvir və təhkiyə əsasında yazılan əsərlərin hamısı nəzmlə yazıla bilir.
5. Ölçü nəzmin əsas ünsürlərindən biri sayılır.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

A) 1, 2, 4 B) 2, 3, 5 C) 1, 2, 3
D) 1, 5 E) 2, 3, 4

72. *Qoy döysün yağış məni, boran məni, qar məni,*
*Həyatın boranları daim yaşadar məni.*
*İstəmirəm həyatım sakitcə bir otaqda*
*gəlib keçsin lal kimi...*
*İstəyirəm döyüşəm qayaların başında*
*düşmənlə qartal kimi.*
Nümunə əsasında doğru fikirləri müəyyən edin.
1. Əruz vəznində yazılmış bu nümunədə bədii təsvir vasitələrindən istifadə edilmişdir.
2. Birinci misrada metafordan istifadə edilib.
3. Bütün misralarda inversiyadan istifadə edilib.
4. İkinci misrada metonimiyaya aid nümunə var.
5. Sərbəst şeirin əlamətləri özünü göstərir.
A) 4, 5 B) 1, 3 C) 2, 3, 5
D) 1, 3, 5 E) 2, 4, 5

73. Verilən xüsusiyyətlərdən biri epik növün janrına aid edilə ***bilməz***.
A) Təhkiyə əsasında yazılır.
B) Bir-biri ilə əlaqədar olan çoxlu əhvalat və hadisə, cəmiyyəti düşündürən problemlər əhatəli təsvir olunur.
C) Əhvalat və hadisənin təsviri yox, onun şairdə yaratdığı təəssürat ifadə olunur.
D) Yazıçı obrazın həyatının bir mərhələsini təsvir etməklə məhdudlaşa da bilir.
E) Nəzm və nəsrlə yazıla bilir.

74. Ölçü baxımından biri digərləri ilə eyni sırada verilə ***bilməz.***
A) qəzəl B) mürəbbe C) qəsidə
D) məsnəvi E) təcnis

75. Biri misradaxili bölgüsünə görə digərlərindən ***fərqlənir***.
A) Azadlıq olalı sən qul olmusan,
Dövlətin varlıdı, yoxsul olmusan.
B) Taleyin nə deyib, yazan nə yazıb.
Doğru söz deyibsən, kim qulaq asıb?
C) Vətən oddan keçib, alovdan keçib,
Dönmə vətən oğlu, bu yoldan and iç!
D) El deyəni, el qoruyub, el tutub,
Köməksizi yağış döyüb, sel tutub.
E) Gecələr dünyada mən tək qalıram
Bir kəsi haraya çağırmaq olmur.

76. Dram janrı ilə bağlı fikirlərin biri ***yanlışdır.***
A) Bəzi mənfi qüvvələrlə toqquşma sonda baş qəhrəmanın ölümü ilə nəticələnir.
B) Bu janrda yazılan əsərlərin süjet xətti ciddi münaqişələr üzərində qurulur.
C) Remarka, monoloq və dialoqlardan istifadə edilir.
D) Həm nəsrlə, həm də nəzmlə yazılır.
E) Mütərəqqi ideyaların qələbəsi ilə nəticələnir.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

77. Cədvələ əsaən uyğunluğu müəyyən edin.

| | | |
|---|---|---|
| A) | *Göz yaşım dağa dönüb,*<br>*Yandırır düşən yeri.* | litota |
| B) | Döydü yağış məni, döydü qar məni,<br>Bir qarışqa minsəm, aparar məni. | mübaliğə |
| C) | Tutuşdu qəm oduna şad gördüyün könlüm,<br>Müqəyyəd oldu ol azad gördüyün könlüm. | bədii təzad |
| D) | Mən dizimə döyüb zar-zar ağladım,<br>Çöllər göz yaşımdan gölmə-gölmədi. | təkrir |
| E) | Məktəbi bitirdim, işə də girdim<br>Səadət bumudur? Yox, bu deyilmiş!. | bədii sual |

78. Biri dastan və poema janrları üçün ortaq cəhət kimi götürülə bilər.
A) Bu janra aid olan bədii nümunələr çoxvariantlı olur.
B) Təhkiyə və təsvirə, həm də hadisələrin doğurduğu hiss-həyəcanların ifadəsinə yer verilir.
C) Həm heca, həm də əruz vəznlərində yazıla bilər.
D) Ustadnamə ilə başlayıb duvaqqapma ilə bitir.
E) Bədii təsvir vasitələrindən istifadə edilsə də, mübaliğədən istifadə edilmir.

79. Doğru fikri müəyyən edin.
A) Məzmun əsər üçün əhəmiyyətli olsa da, forma ilə vəhdət təşkil etmir.
B) Bədii əsərin mövzu və forması onun məzmununa daxildir.
C) Əsərin forması onun məzmununu müəyyən edir.
D) Məzmunla formanın vəhdətində məzmun əsasdır.
E) Forma məzmunu müəyyən etsə də, məzmun formaya təsir edə bilmir.

80. Sərbəst şeir haqqında doğru olan fikirləri müəyyən edin.
1. Sərbəst şeirlərdə ahəngdarlıq müəyyən qədər gözlənilir.
2. Qafiyələnmə tam formalaşmadığı üçün sərbəst şeirin yaranma tarixi daha qədimdir.
3. Heca vəzninin təsiri var.
4. Misradaxili bölgüsü 4+4+4 şəklində, bəzən isə 6+5 şəklində olur.
5. Sərbəst şeir yazmaq şairdən daha çox məsuliyyət tələb edir.
A) 2, 3, 5 B) 1, 4, 5 C) 1, 2, 3
D) 3, 4, 5 E) 1, 3, 5

81. Cədvəldəki ***uyğunsuzluğu*** müəyyən edin.

| | | |
|---|---|---|
| A) | Bədii əsərlərdə surətin xarici görkəminin sözlə ifadəsidir. | portret |
| B) | Süjet xətti ilə möhkəm bağlı olur, münaqişələrin həllində başlıca rol oynayır. | epizodik surət |
| C) | Təsvir olunan hadisələrin mərkəzində durur, yazıçının ideyalarını təbliğ edir. | əsərin qəhrəmanı |
| D) | Əsərdə hadisələrin inkişafında, xarakterlərin açılmasında rol oynayır. | əşya surəti |
| E) | Əsərdə irəli sürülən ideyaya qarşı çıxır, şəxsi mənafeyini üstün tutur. | mənfi surət |

82. Hekayə janrı haqqında verilənlərdən biri ***yanlışdır.***
A) Hadisələr əsas obrazın ətrafında cərəyan edir.
B) Obrazların sayı nisbətən az olur.
C) Həm nəzmlə, həm də nəsrlə yazıla bilir.
D) Nəsrlə yazılan hekayələrə mənzum hekayə də deyilir.
E) Yazıçının həyatda müşahidə etdiyi konkret hadisələr təsvir olunur.

**Açıq tipli test tapşırıqları:**

83. Eyler-Venn diaqramına əsasən ***uyğunsuzluğu*** müəyyən edin.




1. İfşaedici, öldürücü gülüş əsas yer tutur.
2. Belə əsərlərdə həm təhkiyə, həm də tərənnüm ola bilir.
3. Ədəbiyyatda gülüş həmişə eyni vəzifəni ifa edir.
4. Müəyyən bir məsələni açmaq üçün müəllifin istifadə etdiyi üsuldur.
5. Sənətkar həyatın eybəcər tərəflərini qəsdən qabardır, mübaliğəli təsvir edir.
6. Oxucuda tənqid hədəfinə mərhəmətli münasibət yaradır.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

84. Doğru olan fikirləri müəyyən edin.
1. Realist metodun əsas tələbi həyat hadisələrini olduğu kimi təsvir etməkdir.
2. Realizm və romantizm daha geniş bir dövrü əhatə edir.
3. Romantik metodun nümayəndələri “Molla Nəsrəddin” jurnalının ətrafında birləşmişdilər.
4. Romantik metodda müəllif arzuladığı həyatı, xəyali surətləri təsvir etməklə həyatı dəyişdirib yeniləşdirməyə can atır.
5. Nizaminin mənzum romanları realist metod ilə yazılmış əsərlərin klassik nümunəsidir.

85. Cədvələ əsasən doğru fikirləri müəyyən edin.

| ***Faciə*** | ***Komediya*** |
|---|---|
| 1. Böyük ümidin, xoş arzunun məhv olması ilə nəticələnən dramatik əsərdir.<br><br>2. Qəhrəman üz-üzə gəldiyi ictimai qüvvədən gücsüz olduğu üçün mənən məğlub olsa da, cismən qələbə qazanır. | 3. Müsbət ideya ilə mənəvi eybəcərliyin qarşılaşması, arasındakı ziddiyyət gülüş doğurur.<br><br>4. Komik və tragik səhnələrə də yer verilir. |
| 5. Bu əsərlərdə verilən bəzi hissələr səhnədə oxunmur.<br>6. Təhkiyədən istifadə olunan bu əsərlərdə mətnlər əsasən dialoqlar formasında verilir. | |

86. *Gözəl kölgələri geyinir yollar,*
*Mehriban baxışdan uzanır, qalır.*
*Gecəni sübhəcən öyünür yollar*
*Göydə ulduz yolu sozalır, qalır.*
Nümunədə işlənmiş bədii təsvir və ifadə vasitələrini müəyyən edin.
1. təşbeh
2. metafor
3. inversiya
4. metonimiya
5. epitet
6. mübaliğə

87. Verilmiş nümunəyə əsasən doğru uyğunluğu müəyyən edin.

*Mərd anadan mərd oğul,*
*Yada ağa, mərdə qul,*
*Qorxaq töhmət gətirər,*
*Baş ucaldar mərd oğul.*

*1. forma* | *2. ideya* | *3. mövzu*

a. Mərd, cəsur və ləyaqətli insan ailəsinin, elinin, xalqının başını ucaldar.
b. Qafiyə quruluşu *aaba* şəklindədir.
c. "Ananın dəyəri hər zaman bilinməlidir" fikri aşılanır.
d. 1 bənddən, 4 misradan ibarət şeir janrıdır.
e. Mərdlik, igidlik və şərəf haqqındadır.

***Verilmiş parçanı oxuyun və 88-90 saylı situasiya tapşırıqlarını cavablandırın:***

*Vaqe olur Rüstəm bəyin otağında, Avropa qaydasında bəzənmiş, Rüstəm bəy əyləşib səndəli üstə, tək.*

**R ü s t ə m b ə y** *(tək).* İndiyə kimi tamam ömrümdə düşmən qabağından qaçmamışam, həmişə və hər yerdə düşmənə faiq gəlmişəm, bir Allahdan savayı, heç kimdən qorxmamışam... *(Səktə)* Mən haman Rüstəməm ki, topdağıtmaz Cümşüd bəyin evini xaraba qoydum... Mənə bir təşəxxüs satmaqdan ötrü Kərim xanın yurdun xaraba qoydum, tar-mar elədim, evinə od vurdum, külün havaya sovurdum... İndi mən bir ağzından süd iyi gələn cavandan qorxacağam?! Mən, mən Rüstəmi-zəmanə? Heç vaxt. *(Təbəssümlə)* Hmm... Görək Fəxrəddin atası Heydər bəydən qoçaqmı olacaq ki, əli qılınclı, qabağımda dovşan tazı qabağında qaçan kimi vazıyırdı. *(Səktə.)* Özün öldürtdüm, qızın güclən oğluma gətirtdim, qardaşların bu vilayətdən itirtdim... *(Uzun səktə, çağırır)* Əhməd, Vəli!..

**R ü s t ə m b ə y.** Fəxrəddin bəy Heydər bəy oğlu, deyirlər gəlibdir, onu görəniniz varmı? Ölənəcən mənlən əlləşən atası Heydər bəyə bənzəyirmi?

**Ə h m ə d.** Xeyr, ağa, görməmişik. Ancaq belə söyləyirlər ki, çox qəribə oğlandır; alçaq, mülayim. Əlavə deyirlər ki, öz rəiyyəti üçün mülkündə azarxana və məktəbxana açıbdır, həkim gətirib, mama gətirib.

**R ü s t ə m b ə y.** Eşitmişəm... Fəxrəddin tamam dünyanın gözü olsa, genə mənim oğlum Rəşidin əvəzi deyil ki, onu Heydər bəy para-para eləmişdi... O bədbəxt gecə, Rəşid can verən zamanı biz əhd-peyman elədik, öz aramızda əl tutuşduq, o əhd-peyman yadınızdan çıxmayıbdır ki?..

**Ə h m ə d.** Xeyr, ağa, elə halət, elə məqam yaddan çıxa bilməz, mümkün deyil... Və adın kişi qoyanın sözü bir gərək. Başımızdakı papaqdır, ağa!

**V ə l i .** Əvvəl-axır ölümdür. Ağa, qoy can puç olsun..... Rəşid ağamın müsibətini unutmaq olmaz.

88. Verilən nümunə əsasında nöqtələrin yerinə uyğun sözü yazmaqla fikrinizi əsaslandırın.

***Nümunədə həyatı əks etdirmə baxımından***

............................ *əsasdır*

çünki ...............................................................

...............................................................

89. Nümunə əsasında obrazların xarakterik xüsusiyyətini nöqtələrin yerinə yazın və obrazlara görə əsaslandırın.

| ***Obraz*** | ***Xarakterik xüsusiyyəti*** | ***Əsaslandırma*** |
|---|---|---|
| Rüstəm bəy | | |
| Fəxrəddin | | |

90. Mətndə kursivlə verilmiş hissələr nə adlanır və həmin hissəyə məxsus xüsusiyyətlərə aid ən azı iki fikir yazın.

______________________________

1.

______________________________

2.

______________________________

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

TheBilikTeam1

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1